

# ŞƏRQ qapısı

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 215 (24.352)

*21 noyabr 2023-cü il, çərşənbə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.gov.az

Qiyməti 30 qəpik

# Ölkələr arasındakı dostluq münasibətlərində yeni səhifə

## *İraq Prezidenti Əbdüllətif Camal Rəşid Azərbaycanda rəsmi səfərdədir*



Azərbaycan Respublikasına rəsmi səfərə gələn İraq Respublikasının Prezidenti Əbdüllətif Camal Rəşidin noyabrın 20-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə təkbətək, sonra geniş tərkibdə görüşü olub.

Həmin gün Prezident İlham Əliyevin və Prezident Əbdüllətif Camal Rəşidin iştirakı ilə sənədlərin imzalanması mərasimi olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından İraq Respublikasının Prezidenti Əbdüllətif Camal Rəşidin şərəfinə rəsmi nahar verilib.

Noyabrın 20-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və İraq Respublikasının Prezidenti Əbdüllətif Camal Rəşid mətbuata bəyanatlarla çıxış ediblər.

Əvvəlcə Azərbaycan Prezidenti bəyanatla çıxış etdi.

**Prezident İlham Əliyevin bəyanatı**

– Hörmətli cənab Prezident.

Hörmətli qonaqlar, xanımlar və cənablar.

Cənab Prezident, bir daha Azərbaycana xoş gəlmisiniz. Sizi yenidən görməyə çox şadam. İraq Prezidenti ölkəmizə bu ilin əvvəlində Qoşulmama Hərəkatının Zirvə görüşü ilə bağlı səfər etmişdi və görüşümüz zamanı mən cənab Prezidenti Azərbaycana rəsmi səfərə dəvət etmişdim. Çox minnətdaram ki, dəvətim qəbul olundu və Prezident bizim qonağımızdır.

Əminəm ki, bu səfər ölkələrimiz arasında dostluq münasibətlərinin güclənməsinə töhfə verəcək və əməkdaşlığımızda yeni səhifə açacaq. Yeri gəlmişkən, bu, diplomatik əlaqələr tarixi boyunca İraq Prezidentinin Azərbaycana ilk rəsmi səfəridir. Ona görə də bu, tarixi səfərdir.

Biz təkbətək görüşümüz zamanı və nümayəndə heyətləri ilə görüşdə ikitərəfli gündəliyimizin bir çox məsələlərini müzakirə etdik, faktiki olaraq gələcək əməkdaşlığımız üçün əsas istiqamətləri müəyyənləşdirdik. Biz, sözsüz ki, beynəlxalq təsisatlarda bir-birimizi dəstəkləməyə davam edəcəyik. İraq və Azərbaycan müxtəlif beynəlxalq təsisatlarda hər zaman həmrəylik nümayiş etdirir. Biz BMT-də, Qoşulmama Hərəkatında, İslam Əməkdaşlıq Təşkilatında hər zaman bir-birimizi dəstəkləyirik, bir-birimizin suverenliyini və ərazi bütövlüyünü müdafiə edirik.

Cənab Prezident qonşu Ermənistana da səfər edəcək. Ona görə də mən fürsətdən istifadə edərək iki ölkə arasındakı hazırkı vəziyyətlə bağlı qonağımı məlumatlandırmaq istəyirəm. Əlbəttə, hazırda baş verənlərin dəqiq təhlili üçün bizim hamımız keçmişimizə, 1990-cı illərin əvvəlində nə baş verdiyinə nəzər salmalıyıq.

1990-cı illərin əvvəlində Ermənistan Azərbaycana qarşı təcavüzə başladı, bu, Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərinin, təqribən, 20 faizinin işğalı ilə nəticələndi, etnik təmizləmə siyasəti həyata keçirdi ki, bu da bir milyondan çox azərbaycanlının keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin və ətraf rayonların ərazisindən fiziki qovulması ilə nəticələndi.

Beləliklə, qeyd etdiyim kimi, bu, ərazimizin, təqribən, 20 faizini təşkil edirdi və uzun illər ərzində onlara məxsus olmayan ərazini geri qaytarmaqdan imtina edirdi. Faktiki olaraq sıfır nəticələrə gətirib çıxarmış müxtəlif beynəlxalq vasitəçilik səylərinə baxmayaraq, Ermənistan bizim torpaqlarımızı həmişəlik işğal altında saxlamaq istəyirdi. Mandatı işğala son qoymaq üçün həll yolu tapmaqdan ibarət olan ATƏT-in Minsk qrupu yaradılandan 28 il sonra Azərbaycan beynəlxalq səviyyədə tanınmış ərazilərini özü döyüş meydanında, hərbi gücdən və BMT Nizamnaməsinin özünümüdafiə hüququna dair 51-ci maddəsi ilə bizə verilmiş qanuni imkandan istifadə edərək işğaldan azad etdi.

Biz ümid edirdik ki, bundan sonra Ermənistan öz öhdəliklərinə əməl edəcək və hərbi kontingentinin qalan hissəsini Azərbaycan ərazisindən çıxaracaq, lakin bu, baş vermədi. Biz, demək olar ki, 3 il çox səbirli olduq, Ermənistanla birbaşa təmaslarımız, beynəlxalq vasitəçilər vasitəsilə mesaj göndərməyə çalışdıq ki, bu, qəbuledilməzdir, biz, hətta Azərbaycanın kiçik bir hissəsində qanunsuz separatçı rejimin olmasına imkan verə bilmərik. Qeyd etdiyim kimi, işğal olunmuş ərazilərin böyük hissəsi 2020-ci ildə azad edilmişdi. Əfsuslar olsun ki, Ermənistan hökuməti bizə qulaq asmadı, Qərbdəki məsləhətçilərinə qulaq asdı. O məsləhətçilər isə onlara yaxşı məsləhət vermədilər. Əfsuslar ki, onların məsləhəti hərbi kontingenti bizim ərazimizdə mümkün qədər çox saxlamaqdan ibarət oldu.

Bizim səbrimiz bu ilin sentyabrında tükəndi və biz beynəlxalq hüquqa tam riayət edərək öz suveren ərazimizdə antiterror əməliyyatını apardıq. Bu əməliyyat 24 saatdan az davam etdi və mülki əhali arasında itkilər olmadı. Düşünürəm ki, indi Yaxın Şərqdə müşahidə etdiklərimizə münasibətdə bu antiterror əməliyyatı mülki əhali arasında hərbi əməliyyatları itkisiz necə aparmaq lazımdır nöqteyi-nəzərdən bir örnək hesab olunmalıdır.

Bunun nəticəsində Dağlıq Qarabağdakı qeyri-qanuni rejim süquta uğradı. Onun qeyri-qanuni olmasına baxmayaraq, onlar özləri "dağlıq qarabağ respublikası" adlandırdıqları bu qeyri-qanuni qurumu buraxdılar. Biz suverenliyimizi bərpa etdik və indi Azərbaycan Bayrağı ərazimizdə hər yerdə dalğalanır.

Beləliklə, bu, vəziyyətin tarixçəsidir. İndi isə biz növbəti mərhələyə gəlirik. Növbəti mərhələdə isə biz – mən bunu cənab Prezidentə bildirdim, – Ermənistandan təklifimizə dair qeydləri gözləyirik. Biz bir neçə dəfə sülh müqaviləsinin layihəsi ilə bağlı təklifləri mübadilə etmişik. Lakin indi biz sentyabrın 11-dən bəri Ermənistan hökumətindən bu qeydlərlə bağlı rəyinin nədən ibarət olduğuna dair cavab verməsini iki aydan artıqdır ki, gözləyirik və bizə heç bir cavab gəlməyib.

Yenə də bunun səbəbinin onlara pis məsləhətlərin, xüsusilə Fransadan pis məsləhətlərin verilməsinin olduğunu düşünürəm. Fransa Cənubi Qafqazda çox destruktiv rol oynayır. Əslində, indi Ermənistan Fransa hökumətinin marionetinə çevrilib və bu, regional sabitliyə ciddi təhlükə ola bilər. Bizə heç bir müharibə lazım deyil. Biz öz ərazimizdə vuruşurduq və ədaləti, beynəlxalq hüquqi bərqərar etdik. Lakin Ermənistan hökuməti və siyasi establişmenti qisas haqqında düşünür. Fransa hökumətindən gələn yanlış mesajlar, əslində, Ermənistan hökumətində və ola bilsin ictimai rəyində onların Azərbaycana qarşı növbəti hərbi təcavüzə başlaya biləcəklərinə dair illüziya yaradır. Ermənistanı silahlandırmaqla, hansı ki Fransa qürur duyur və bunu ictimai şəkildə bildirir, Ermənistan yeni bir müharibəyə başlamaq qərarı versə, bu ona kömək etməyəcək. Nəticə eyni olacaq. Heç kəs onlara kömək etməyəcək. Üç il bundan əvvəl Fransa onlara kömək etdi? Xeyr. İki ay bundan əvvəl onlara kömək etdi? Xeyr. Onlar burada nə edə bilərlər. Heç nə.

Odur ki, Ermənistan öz gələcəyini regionumuzdan uzaqda yerləşən ölkələrin ambisiyaları üzərində deyil, öz milli maraqlarına əsasən planlaşdırmalıdır. Xüsusilə qanlı müstəmləkə keçmişinə malik olan ölkələrin ambisiyaları üzərində qurmamalıdırlar. Bunların müstəmləkə siyasəti, əsasən, dünyanın müxtəlif yerlərində müsəlman əhalisinə qarşı yönəlmişdir.

Hesab edirəm ki, qeydlərimiz ilə bağlı Ermənistandan nə qədər tez cavab alsaq bir o qədər də yaxşı olar. Heç bir beynəlxalq təzyiq Azərbaycan xalqının və Azərbaycan hökumətinin iradəsinə təsir göstərə bilməz. Ermənistan indi dünyanın müxtəlif yerlərində olan diaspor təşkilatlarından Azərbaycana hər yerdə hücum etmək üçün istifadə edir. Lakin onlar üçün bu, sıfır nəticə verəcək. Biz sülhə hazırıq, lakin ədalətli sülhə, hər iki ölkənin ərazi bütövlüyünün və suverenliyinin tanınması əsasında olan sülhə. Biz sağlam düşüncəyə və tarixi ədalətə əsaslanan sülhə hazırıq. Beləliklə, mən həmkarımı bu barədə məlumatlandırdım ki, Cənubi Qafqazda real vəziyyəti daha yaxşı anlamaq mümkün olsun.

Bizim ikitərəfli əlaqələrimizə gəldikdə demək istəyirəm ki, biz iqtisadi əməkdaşlıq məsələsini geniş şəkildə əhatə etdik. İki həftədən sonra nümayəndə heyətimiz hökumətlərarası komissiyanın yeni iclasının keçirilməsi üçün Bağdada səfər edəcək. Bizim qarşılıqlı ticarətin necə artırılması ilə bağlı böyük planlarımız var. Həmçinin bu gün enerji sahəsində əməkdaşlıq məsələsini də müzakirə etdik. Növbəti ay nümayəndə heyətimizin səfəri zamanı bu məsələ yenə müzakirə olunacaq.

Biz müdafiə sənayesi, turizm sahələrində əməkdaşlıq imkanlarını müzakirə etdik. Artıq bizə bu gün nümayəndə heyətlərinin iştirakı ilə keçirilən görüşdə məlumat verildi ki, iki paytaxt arasında birinci birbaşa uçuş baş tutub. Növbəti həftələrdə bizim Kərkük, Ərbil və Bəsrə şəhərlərinə də birbaşa reyslərimiz olacaq. Biz hər iki istiqamətdə çox sayda turistlərin səyahət edəcəyini gözləyirik. Əlbəttə ki, biz vizaların verilməsi prosesini sadələşdirmək üçün növbəti hansı addımların atılmasını da müzakirə etdik. Əminəm ki, səfərin nəticələri çox yaxşı olacaq. Biz bir daha ölkələrimiz arasında dostluq münasibətlərinin olduğunu təsdiq etdik. Dialoqumuzun davam etdirilməsi əminəm ki, yeni yaxşı nəticələrə gətirib çıxaracaq və bizim əməkdaşlıq güclənəcək. Bir daha cənab Prezident, xoş gəlmisiniz və bizimlə bir yerdə olduğunuz üçün Sizə təşəkkür edirəm.

***

Sonra İraq Prezidenti bəyanatla çıxış etdi.

**Prezident Əbdüllətif Camal Rəşidin bəyanatı**

– Cənab Prezident, hörmətli həmkarlar, xanımlar və cənablar!

Burada olmağa çox şadam. Bu mənim cənab Prezidentin nəzakətli dəvəti ilə Azərbaycana ikinci səfərimdir. Bizi buraya dəvət etdiyiniz üçün Sizə təşəkkür edirəm.

Düşünürəm ki, səfərimiz çox səmərəli və çox faydalı oldu. Əməkdaşlığımız keçmişdəkindən daha da güclü olmaq üzrədir. Biz bir çox fəaliyyət sahələrində – infrastrukturun inşası, ticarət, neft və qaz, transmilli layihələr, eyni zamanda İraqa investisiyalar, eləcə də turizm və təhsilin, həmçinin iki ölkə üçün çox əhəmiyyət kəsb edən sahələrin təşviqi ilə bağlı əməkdaşlıq edə bilərik.

Hesab edirəm ki, bizim buraya səfərimiz faydalıdır və ümid edirik ki, bu səfərlər təkrarlanacaq. Çox şadam ki, Azərbaycan nümayəndə heyəti tezliklə İraqa səfər edəcək. Sizin də qeyd etdiyiniz kimi, cənab Prezident, biz yenə də əməkdaşlıq üçün və bir çox sahələrdə əməkdaşlığın başlanılması üçün zəruri olan bütün məsələləri müzakirə edəcəyik.

Hesab edirəm ki, İraqda biznes üçün və Azərbaycan üçün İraqda biznes imkanları ilə bağlı yeni bir mühit yaratmalıyıq. Cənab Prezident, Azərbaycanda sülh və sabitliyə nail olmağınız münasibətilə Sizi təbrik edirəm. Eyni zamanda Ermənistanla sülh müqaviləsinin yekunlaşdırılması məsələsində Sizə uğurlar arzulayıram. Düşünürəm ki, müharibə və münaqişələr yalnız vəziyyətin pisləşməsinə gətirib çıxara bilər. Bununla heç bir problem həll edilə bilməz. Hesab edirəm ki, bütün problemlərimiz dialoq, qarşılıqlı anlaşma və əməkdaşlıq əsasında həll olunmalıdır.

Əfsuslar olsun ki, bütün Yaxın Şərq regionu, – bu, hətta bütün dünyaya da təsir edib, – yeni münaqişədən, fələstinlilərin hüquqları ilə bağlı olan münaqişədən əziyyət çəkir. İraqın bu məsələdə mövqeyi çox aydındır. Biz bütün fələstinlilərin hüquqlarını tamamilə dəstəkləyirik, istər onlar Qəzza zolağının Qərb sahilində olsun, istər Qəzza zolağında və dünyanın başqa bir yerində olsun. Biz ümid edirik ki, fələstinlilər öz milli hüquqlarını tamamilə əldə edəcəklər və biz tezliklə fələstinlilərin öz dövləti olacağına da ümid edirik.

Bu münaqişə real olaraq həll olunmazsa, bütün regionda gərginlik qalacaq, sülhə və sabitliyə nail olunmayacaq. Biz Fələstin xalqının dərdinə şərikik və Fələstin xalqını dəstəkləyirik. İraqın bu məsələdə mövqeyi birinci gündən çox aydındır və biz beynəlxalq birliyi öz mövqeyimiz barədə məlumatlandırmışıq. Biz Qəzzada mülki əhaliyə hücum edib öldürülməsi, məktəb və xəstəxanaların, yaşayış binalarının və mülki infrastrukturun dağıdılması hallarını qınayırıq. Ümid edirəm ki, bu böhranlı vəziyyət tezliklə sona çatacaq və Fələstin xalqı öz torpaqlarında öz hüquqlarına yiyələnəcək.

Cənab Prezident, hesab edirəm ki, təfərrüatı ilə müzakirə edə biləcəyimiz bir neçə mövzu var, lakin mən bu razılaşmalara nail olmaq və ya mövcud olduğu halda açıq qalan problemləri həll etmək üçün bunu hər iki ölkədən olan müxtəlif nazirliklərin və təşkilatların öhdəsinə buraxıram.

Hər iki ölkə arasında əməkdaşlığın daha da yaxşılaşması məni sevindirir və biz Sizinlə əlaqə saxlayacaq və nümayəndə heyətinizi onlara münasib olan vaxtda və zəruri olduqda iki ölkə arasında birbaşa reyslər vasitəsilə nəqliyyat əlaqələrini qurmaqla qəbul etməyə və eyni zamanda Sizin təcrübənizdən faydalanmağa hazırıq.

Yekunda əldə etdiyiniz nailiyyətlər münasibətilə Sizi təbrik etmək istəyirəm. Mən təkcə Bakını görmüşəm, başqa yerləri görməmişəm. Lakin Bakıda infrastruktur, binalara və şəhərdə təşkilati məsələlərə münasibətdə gördüklərim əsasında Sizi təbrik edirəm. Bu, istənilən ölkə üçün heyrətamiz bir nailiyyətdir və siz hamınız Bakıda yaşamaqdan qürur hissi duymalısınız.

Bir daha, cənab Prezident, bizi dəvət etdiyinizə görə çox sağ olun. Sizin həmkarlarınızla bir yerdə vaxt keçirmək bizim üçün çox xoş idi. Bir daha Sizə ən xoş arzularımı çatdırır və gələcəkdə uğurlar diləyirəm.

**AZƏRTAC**

# Kənd təsərrüfatına dövlət dəstəyinin və aqrar sahədə lizinq fəaliyyətinin təkmilləşdirilməsi haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin Fərmanı

Muxtar respublikada kənd təsərrüfatı məhsulları istehsalçılarının texnika ilə təminatının yaxşılaşdırılması istiqamətində mühüm işlər görülmüş, fermerlərə güzəştli şərtlərlə aqrotexniki xidmətlər göstərilməsi təşkil edilmiş, heyvandarlığın cins tərkibinin yaxşılaşdırılması üçün tədbirlər həyata keçirilmişdir. Ötən 18 il ərzində "Naxçıvan Aqroservis" Açıq Səhmdar Cəmiyyəti tərəfindən 3540 ədəd texnika, 1953 baş damazlıq heyvan güzəşt tətbiq edilməklə muxtar respublikada fəaliyyət göstərən istehsalçılara lizinqə verilmiş və ya satılmışdır. Hazırda istismar müddəti başa çatmaqda olan avadanlığın yenilənməsinə, yüksək məhsuldarlıq hədəflərinə çatmaq üçün innovativ texnologiyaların tətbiqi imkanlarının genişləndirilməsinə, aqrotexniki xidmətlər göstərilməsində rəqabətin və keyfiyyətin yüksəldilməsinə, kənd təsərrüfatına dövlət dəstəyi mexanizminin təkmilləşdirilməsinə ehtiyac yaranmışdır.

Kənd təsərrüfatı istehsal vasitələri bazarında rəqabətyönlü fəaliyyətin təmin edilməsi, texnikanın və damazlıq heyvanların lizinq vasitəsilə güzəştli satışı mexanizminin təkmilləşdirilməsi, özəl aqrotexniki xidmətlərin genişləndirilməsi, dövlət-özəl tərəfdaşlığı prinsipi tətbiq edilməklə güzəştlərə yönəldilən büdcə vəsaitindən səmərəli istifadə məqsədilə, Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 30-cu maddəsini və 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin "Naxçıvan Aqrar Xidmətlər Mərkəzi" publik hüquqi şəxsinin vəsaitindən istifadə Qaydası" təsdiq edilsin (əlavə olunur).

2. Bu Fərmanın 1-ci hissəsi ilə təsdiq edilmiş Qaydaya uyğun olaraq dövlət büdcəsinin vəsaiti hesabına verilən güzəştlər kənd təsərrüfatı istehsal vasitələrinin (kənd təsərrüfatı texnikasının, texnoloji avadanlığın, suvarma sistemləri dəsti və avadanlığının, damazlıq heyvanların) ticarəti ilə məşğul olan bütün hüquqi və fiziki şəxslərin həyata keçirdikləri satışlara şamil edilsin.

3. Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyi "Naxçıvan Aqroservis" Açıq Səhmdar Cəmiyyətinin (bundan sonra – Cəmiyyət) sərəncamındakı əmlakın müstəqil qiymətləndirici cəlb edilməklə qiymətləndirilməsini təşkil etsin və qiymətləndirmənin nəticəsinə əsasən Cəmiyyətin yeni balansı barədə məlumatı Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyinə təqdim etsin.

4. Mövcud kənd təsərrüfatı istehsal vasitələrinin, o cümlədən 2023-cü ilə Cəmiyyətin satın alması nəzərdə tutulan texnikanın və damazlıq heyvanların lizinq yolu ilə satışı zamanı tətbiq edilən güzəşt və yaranmış faiz öhdəlikləri Cəmiyyətin zərəri hesabına ödənilsin, mövcud qalıq portfeldən yığılan vəsait (Cəmiyyətin saxlanması və fəaliyyətinin təmin olunması üçün tələb olunan vəsait həcmi istisna olmaqla) bu Fərmanın 1-ci hissəsi ilə təsdiq edilmiş Qaydaya uyğun olaraq müəyyənləşdirilən güzəştlərin ödənilməsində istifadə məqsədilə Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin "Naxçıvan Aqrar Xidmətlər Mərkəzi" publik hüquqi şəxsinin (bundan sonra – Mərkəz) müvafiq hesabına köçürülsün.

5. Naxçıvan Muxtar Respublikasının Maliyyə Nazirliyi kənd təsərrüfatı istehsal vasitələrinə güzəşt tətbiqi ilə bağlı bu Fərmanın 1-ci hissəsi ilə təsdiq edilmiş Qaydaya uyğun tələb olunan vəsaitin hər il dövlət büdcəsində nəzərdə tutulmasını təmin etsin.

6. Naxçıvan Muxtar Respublikasının Kənd Təsərrüfatı Nazirliyi bu Fərmanın 2-ci - 4-cü hissələrinin icrası ilə bağlı aidiyyəti üzrə tədbirlər görsün və görülən işlər, habelə Mərkəzin və Cəmiyyətin fəaliyyətinin nəticələri barədə bir il ərzində Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə məlumat versin.

7. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti:

7.1. Naxçıvan Muxtar Respublikasının Ali Məclisi sədrinin aktlarının bu Fərmana uyğunlaşdırılmasına dair təkliflərini üç ay müddətində hazırlayıb Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə təqdim etsin;

7.2. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin normativ-hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə məlumat versin;

7.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ-hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə üç ay müddətində Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə məlumat versin;

7.4. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin müavini Anar İBRAHİMOV**

*Naxçıvan şəhəri, 17 noyabr 2023-cü il*

***Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2023-cü il 17 noyabr tarixli Fərmanı ilə təsdiq edilmişdir***

# Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin "Naxçıvan Aqrar Xidmətlər Mərkəzi" publik hüquqi şəxsinin vəsaitindən istifadə QAYDASI

### 1. Ümumi müddəalar

1.1. Bu Qayda Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin "Naxçıvan Aqrar Xidmətlər Mərkəzi" publik hüquqi şəxsinin (bundan sonra – Mərkəz) vəsaitindən istifadənin mexanizmini və şərtlərini müəyyən edir.

1.2. Mərkəzin vəsaiti bu Qaydanın 2-ci hissəsində müəyyən edilən aqrar bölmənin inkişafı layihələrinin və kənd təsərrüfatı istehsal vasitələrinə verilən güzəştlərin maliyyələşdirilməsinə yönəldilir. Kənd təsərrüfatı istehsal vasitələrinə kənd təsərrüfatı texnikası, texnoloji avadanlıq, suvarma sistemləri dəsti və avadanlığı, damazlıq heyvanlar daxil edilir.

1.3. Güzəştli maliyyələşmələrin, o cümlədən kreditlərin, lizinq vəsaitinin, təminatların və güzəştlərin aqrar sektorda fəaliyyət göstərən sahibkarlıq subyektlərinə və ailə kəndli təsərrüfatlarına (bundan sonra – sahibkarlıq subyektləri) çatdırılması müvəkkil banklar, bank olmayan kredit və lizinq təşkilatları (bundan sonra – müvəkkil kredit təşkilatları) vasitəsilə onların öz adından və tam və ya qismən öz riskləri hesabına həyata keçirilir.

1.4. Bu Qaydanın 5.8-ci bəndinə uyğun olaraq təminat tətbiq edilməklə verilmiş mikrokreditlərin qeyri-işlək hissəsi üzrə risklər qismən Mərkəz tərəfindən qarşılanır. Mikrokreditlərin qeyri-işlək hissəsi (qeyri-işlək kredit) dedikdə, kredit üzrə əsas borc ödənişlərinin müqavilədə göstərilən tarixdən 90 (doxsan) təqvim günündən artıq gecikdirilmiş hissəsi (məbləği) başa düşülür.

1.5. Naxçıvan Muxtar Respublikasının Kənd Təsərrüfatı Nazirliyi Mərkəzin vəsaitindən istifadə üzrə Müsabiqə Komissiyası (bundan sonra – Müsabiqə Komissiyası) yaradır. Müsabiqə Komissiyası regional struktur və regional əhatə dairəsi nəzərə alınmaqla müvəkkil kredit təşkilatlarının seçilməsini həyata keçirir. Müsabiqə Komissiyasının tərkibinə aidiyyəti dövlət qurumları ilə yanaşı, qeyri-hökumət təşkilatlarının nümayəndəsi də daxil edilə bilər.

1.6. Müsabiqə Komissiyası haqqında Əsasnaməni və kredit təşkilatlarının seçilmə meyarlarını Naxçıvan Muxtar Respublikasının Kənd Təsərrüfatı Nazirliyi təsdiq edir.

1.7. Müvəkkil kredit təşkilatlarının Mərkəzin hesabına qaytardığı kredit vəsaiti, habelə digər daxilolmalar (bu Qaydanın 5.9-cu və 5.10-cu bəndlərində nəzərdə tutulan vəsaitlər istisna olmaqla) yenidən bu Qaydanın 1.2-ci bəndində nəzərdə tutulmuş məqsədlərə yönəldilir.

### 2. Mərkəzin vəsaitindən istifadə istiqamətləri

2.1. Mərkəzin vəsaitindən aşağıdakı istiqamətlərdə istifadə edilir:

2.1.1. kənd təsərrüfatı məhsullarının istehsalı, emalı, saxlanması və satışı proseslərinin təkmilləşdirilməsi ilə bağlı layihələrin maliyyələşdirilməsi;

2.1.2. regionların aqrar inkişafı ilə bağlı innovativ layihələrin maliyyələşdirilməsi;

2.1.3. kənd təsərrüfatı istehsal vasitələrinin təchizatının yaxşılaşdırılması ilə bağlı layihələrin, həmçinin onların güzəştli şərtlərlə satışının, lizinqə verilməsinin və kreditləşməsinin maliyyələşdirilməsi;

2.1.4. heyvandarlıq təsərrüfatlarının dövlət-özəl tərəfdaşlığı tətbiq edilməklə inkişafı sahəsində layihələrin maliyyələşdirilməsi;

2.1.5. Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin pilot layihələrinin maliyyələşdirilməsi;

2.1.6. bu Qayda ilə müəyyən edilmiş qaydada təminatın maliyyələşdirilməsi.

### 3. Müvəkkil kredit təşkilatları vasitəsilə kreditlərin verilməsi

3.1. Vəsaitdən istifadə şərtləri müvəkkil kredit təşkilatları ilə Mərkəz arasında bağlanan müqaviləyə əsasən tənzimlənir. Hər bir müvəkkil kredit təşkilatı üçün müəyyən edilən kredit xəttinin maksimum həcmi (limit) 1 000 000 (bir milyon) manatdır. Kredit xəttinin konkret həcmini (limit üzrə vəsait) müvəkkil kredit təşkilatının sifarişi əsasında Müsabiqə Komissiyası müəyyən edir. Limit üzrə vəsait istifadə müddəti ərzində müvəkkil kredit təşkilatlarının müraciəti əsasında Müsabiqə Komissiyası onlara sahibkarlıq subyektlərinin investisiya layihələrinin maliyyələşdirilməsi məqsədilə limit üzrə əlavə vəsait müəyyən edə bilər.

3.2. Müvəkkil bankların Mərkəzdən cəlb etdikləri vəsaitin ümumi məbləğinin qalığı onların məcmu kapitalının, bank olmayan kredit təşkilatlarının isə nizamnamə kapitalının 100 faizinədək ola bilər. Bank olmayan kredit təşkilatları üçün nizamnamə kapitalından artıq məbləğdə vəsaitin ayrılması bank qarantiyası əsasında həyata keçirilə bilər.

3.3. Müvəkkil kredit təşkilatlarının müraciəti əsasında ilin əvvəlində limit üzrə müəyyən edilmiş vəsaitdən maliyyə ilinin başa çatmasına 3 (üç) ay qalanadək, müvəkkil kredit təşkilatlarının müraciəti əsasında sonradan açılmış limitlərdən isə ilin sonunadək 80 faizdən az istifadə olunarsa, vəsaitin istifadə olunmayan hissəsinə limit üzrə vəsait müəyyən edilən tarixdən etibarən, müvafiq olaraq, oktyabr ayının 1-dək və ya dekabr ayının 31-dək hər təqvim günü üçün 0,02 faiz cərimə hesablanır və limitin istifadə edilməmiş və (və ya) müvəkkil kredit təşkilatlarının məlumatlarına əsasən istifadəsi nəzərdə tutulmayan hissəsi Müsabiqə Komissiyasının qərarı ilə ləğv edilir və (və ya) həmin maliyyə ili üzrə digər müvəkkil kredit təşkilatlarına ayrılır. Müvəkkil kredit təşkilatları limitin azaldılması və ya ləğv edilməsi barədə Mərkəzə müraciət edə bilərlər.

3.4. Bir il ərzində bir müvəkkil kredit təşkilatına ayrılan limit həmin il üzrə müvəkkil kredit təşkilatlarına veriləcək cəmi limitin 30 faizindən çox ola bilməz.

3.5. Müvəkkil kredit təşkilatları istifadə etdikləri əsas borcu və hesablanmış faizləri Mərkəzlə bağladıqları müqaviləyə uyğun olaraq hər ay üzrə növbəti ayın ilk 5 (beş) iş günündən gec olmayaraq Mərkəzə ödəməlidirlər.

3.6. Müvəkkil kredit təşkilatlarının Mərkəz qarşısında öhdəlikləri onların sahibkarlıq subyektləri ilə münasibətlərindən asılı deyildir. Sahibkarlıq subyektlərinin kreditləri qaytarmasından asılı olmayaraq, müvəkkil kredit təşkilatları Mərkəz qarşısında öz öhdəliklərini müqavilə şərtlərinə uyğun olaraq yerinə yetirməlidirlər. Müvəkkil kredit təşkilatları Mərkəz qarşısında öhdəliklərinin gecikdirildiyi hər gün üçün köçürülməyən vəsaitin 0,1 faizi həcmində, lakin kreditin qalıq məbləğinin 10 faizindən çox olmamaqla cərimə ödəyirlər. Müvəkkil kredit təşkilatları 1 (bir) ay müddətində öhdəliklərini icra etmədikdə, Mərkəz öz vəsaitinin qaytarılması üçün müvafiq tədbirlər görür.

3.7. Müvəkkil kredit təşkilatının lisenziyası ləğv edildikdə, kredit təşkilatı məcburi ləğv edildikdə və ya müflis olduqda, Mərkəzin müraciəti əsasında ləğvediciyə nəzarət edən məhkəmə orqanı Mərkəzin vəsaiti hesabına maliyyələşdirilən kredit portfelinin ləğvetməyə məruz qalmış kredit təşkilatından digər müvəkkil kredit təşkilatına keçirir. Bu zaman həmin kredit portfelinin təminatı kimi kredit təşkilatının xeyrinə ipoteka ilə yüklü edilmiş və ya girov qoyulmuş əmlak üzrə hüquqlar yeni müvəkkil kredit təşkilatına ötürülür.

3.8. Kredit portfeli digər müvafiq kredit təşkilatına keçirilərkən müvəkkil kredit təşkilatının müraciəti əsasında Müsabiqə Komissiyasının müəyyən etdiyi qaydada kreditin müddəti bir ilədək uzadılmaqla bir dəfə restrukturizasiya oluna bilər.

### 4. Sahibkarlıq subyektlərinə güzəştli maliyyələşmə ilə əlaqədar vəsait ayrılması və onlardan istifadə edilməsi

4.1. Sahibkarlıq subyektləri kreditlərin, lizinq vəsaitinin ayrılması və güzəştlərin verilməsi üçün müvəkkil kredit təşkilatına rəsmi qaydada müraciət edirlər. Müvəkkil kredit təşkilatı müraciətləri qeydiyyata alır və sahibkarlıq subyektinə müraciətin qeydiyyata alınmasını təsdiq edən müvafiq sənəd təqdim edir. Müvəkkil kredit təşkilatlarında bu müraciətə baxılır, həmin müraciət Naxçıvan Muxtar Respublikasının Kənd Təsərrüfatı Nazirliyinin müəyyən etdiyi layihələrin tərtib olunmasına dair tələblər və qiymətləndirmə meyarları əsasında təhlil edilir, müraciətin qeydiyyata alındığı tarixdən 15 iş günündən gec olmayaraq kreditin, lizinq vəsaitlərinin və ya güzəştin verilə biləcəyi barədə qərar qəbul olunur, yaxud sahibkarlara əsaslandırılmış imtina məktubu göndərilir (təqdim edilir).

4.2. Müvəkkil kredit təşkilatı müsbət qiymətləndirdiyi müraciətə dair tələb olunan məlumatları və sənədləri Mərkəzə təqdim edir. Mərkəz 15 iş günü müddətində müraciətin tam və hərtərəfli ekspertizasını həyata keçirir, ekspertiza üçün zərurət olduqda əlavə məlumat və sənədlər tələb edir.

4.3. Mərkəz ekspertizanın nəticəsinə əsasən müraciətin təmin olunmasına və ya imtina edilməsinə dair qərarı barədə müvəkkil kredit təşkilatına rəsmi məlumat verir.

4.4. Müraciətin təmin olunmasına dair qərar qəbul edildikdən sonra müvəkkil kredit təşkilatı vəsaitin ayrılması barədə Mərkəzə sifariş göndərir. Mərkəz sifarişi aldıqdan sonra 3 (üç) bank günü müddətində vəsaitin müvəkkil kredit təşkilatının hesabına köçürülməsini təmin edir. Müvəkkil kredit təşkilatı aldığı vəsaiti 1 (bir) bank günü müddətində sahibkarlıq subyektinin hesabına köçürür və bu barədə Mərkəzə məlumat verir. Vəsait müxbir hesaba daxil olandan 1 (bir) bank günü sonra müvəkkil kredit təşkilatı sahibkarlıq subyektinə vəsaitdən istifadə etmək hüquqlarını təsdiq edən bildiriş təqdim edir. Həmin tarixdən etibarən sahibkarlıq subyekti vəsaitdən istifadə edir. Sahibkarlıq subyektinə verilmiş kredit vəsaiti (bu Qaydanın 5.1.5-ci yarımbəndində nəzərdə tutulan güzəştli kreditlər və mərhələli qaydada maliyyələşdirilən layihələr üzrə verilən kreditin transları istisna olmaqla) yalnız tam həcmdə geri qaytarıldıqdan sonra ona Mərkəzin vəsaiti hesabına yenidən kredit ayrıla bilər.

4.5. Sahibkarlıq subyektləri aldıqları güzəştli kreditlər üzrə faiz borclarını müqavilə şərtlərinə uyğun olaraq hər ay ödəməlidirlər. Əsas borc isə güzəşt müddəti bitdikdən sonra qalan müddət ərzində növbəti aydan etibarən bərabər hissələrə bölünməklə ödənilir. Sahibkarlıq subyektləri vaxtından əvvəl faizləri və ya əsas borcu ödəyərsə, həmin faizlərin bu Qaydanın 5.8-ci bəndinə uyğun olan hissəsi və ya əsas borc müvəkkil kredit təşkilatı tərəfindən 5 (beş) iş günündən gec olmayaraq Mərkəzin hesabına köçürülməlidir. Müvəkkil kredit təşkilatları həmin vəsaitin Mərkəzin hesabına köçürülməsini gecikdirdikdə, bu Qaydanın 3.6-cı bəndinə uyğun olaraq cərimə ödənilməlidir. Vəsaitin köçürülməsi 15 (on beş) iş günündən çox gecikdirildikdə, Müsabiqə Komissiyası müvəkkil kredit təşkilatına yeni vəsait ayrılmasını dayandıra və ya onu müvəkkil kredit təşkilatları sırasından çıxara bilər.

4.6. Mərkəz sahibkarlıq subyektlərinin əsas borcu və faizləri müvəkkil kredit təşkilatına ödəməsi tarixi ilə müvəkkil kredit təşkilatı tərəfindən Mərkəzə köçürülməsi tarixinin üzləşməsini apara və ya bunun üçün Azərbaycan Respublikasının Mərkəzi Bankının Naxçıvan Muxtar Respublikası İdarəsinə

Ardı 3-cü səhifədə

müraciət edə bilər. Belə müraciət daxil olduqda, Azərbaycan Respublikasının Mərkəzi Bankının Naxçıvan Muxtar Respublikası İdarəsi yoxlama zamanı müvəkkil kredit təşkilatı tərəfindən köçürmələrdə uyğunsuzluq aşkar edərsə, bu barədə Mərkəzə məlumat verir.

4.7. Sahibkarlıq subyektlərinin öz öhdəliklərini icra edib-etməməsindən asılı olmayaraq, müvəkkil kredit təşkilatları Mərkəz qarşısında məsuliyyət daşıyırlar.

### 5. Kreditlərin və lizinqlərin həddi, müddəti və faizləri

5.1. Sahibkarlıq subyektlərinə Mərkəzin vəsaiti hesabına aşağıdakı hədlərdə güzəştli kreditlər və lizinq vəsaiti verilə bilər:

5.1.1. 15 000 manatadək – mikrokreditlər;

5.1.2. 15 001 manatdan 30 000 manatadək – kiçikhəcmli kreditlər;

5.1.3. 30 001 manatdan 100 000 manatadək – ortahəcmli kreditlər;

5.1.4. 100 001 manatdan 200 000 manatadək – irihəcmli kreditlər;

5.1.5. 1 000 000 manatədək – kənd təsərrüfatı istehsal vasitələrinin alınması üçün kreditlər və lizinq vəsaiti.

5.2. Güzəştli kreditlərin müddətləri aşağıdakı kimi müəyyən edilir:

5.2.1. mikrokreditlər üçün – 3 ilədək;

5.2.2. kiçik və ortahəcmli kreditlər üçün – 3 ilədək;

5.2.3. irihəcmli kreditlər üçün – 5 ilədək.

5.3. Kreditlər üzrə güzəşt müddəti aşağıdakı kimi müəyyən edilir:

5.3.1. mikrokreditlər üçün – 12 ayadək;

5.3.2. kiçik və ortahəcmli kreditlər üçün – 18 ayadək;

5.3.3. irihəcmli kreditlər üçün – 24 ayadək.

5.4. Sahibkarlıq subyektlərinə Mərkəzin vəsaiti hesabına yeni bağların salınması məqsədilə bu Qaydanın 5.1.1–5.1.4-cü yarımbəndlərində nəzərdə tutulmuş güzəştli kreditlər verildikdə həmin güzəştli kreditlərin müddəti 6 ilədək, kreditlər üzrə güzəşt müddəti isə 36 ayadək müəyyən edilir.

5.5. Kredit və lizinq müddəti güzəştli şərtlərlə alınan damazlıq heyvanlar üçün 5 il, digər kənd təsərrüfatı istehsal vasitələri üçün 10 ildir. Alınmasında güzəşt tətbiq edilən kənd təsərrüfatı istehsal vasitələri üçün kreditlərə və lizinqlərə güzəşt müddəti şamil edilmir.

5.6. Güzəşt müddətində sahibkarlıq subyekti yalnız faiz borcunu ödəyir, əsas borc üzrə hər hansı ödəniş həyata keçirmir.

5.7. Sahibkarlıq subyektləri alınmış kreditlər və lizinqlər üzrə faiz borclarını və əsas borcu güzəşt müddəti bitdikdən (alınmasında güzəşt tətbiq edilən kənd təsərrüfatı istehsal vasitələri üçün alındığı gündən) sonra kredit və lizinq müqaviləsinə uyğun olaraq növbəti aydan başlayaraq hər ayın ilk iş günü bərabər hissələrlə ödəyirlər.

5.8. Mərkəz bu Qaydada nəzərdə tutulan vəsaiti müvəkkil kredit təşkilatlarına təminatsız verilən mikrokreditlər və ya digər güzəştli kreditlər üçün illik 2 faiz, təminatla verilən mikrokreditlər üçün isə əlavə 0,5 faiz olmaqla illik 2,5 faiz tətbiq etməklə verir. Müvəkkil kredit təşkilatlarının Mərkəzin kredit vəsaitinə tətbiq etdiyi illik faiz dərəcəsinin ən yüksək həddi (Mərkəzin tətbiq etdiyi faizlər də daxil olmaqla) müvafiq olaraq öhdəliklərin icrasının təmin edilməsi üsulu müəyyən edilmədən verilən mikrokreditlər üçün 12 faizdən, digər güzəştli kreditlər üçün 7 faizdən, kənd təsərrüfatı kooperativlərinə veriləcək bütün növ kreditlər üçün isə 5 faizdən artıq olmamalıdır.

5.9. Müvəkkil kredit təşkilatları vasitəsilə verilmiş kredit və lizinq vəsaitindən istifadəyə görə Mərkəzin hesabına ödənilmiş faiz məbləğinin 1/2 hissəsi, təminatla verilmiş mikrokreditlər üçün Mərkəzin hesabına ödənilmiş faiz məbləğinin isə 3/5 hissəsi həmin kreditlərin qeyri-işlək hissəsi və təminat üzrə tələblərin ödənilməsi məqsədilə Mərkəzin açdığı xüsusi hesabda saxlanılır. Bu vəsait vaxtı keçmiş kreditlər üzrə ödənişlər edilməsi məqsədilə tədbirlər görülməsinə, habelə Naxçıvan Muxtar Respublikasının Kənd Təsərrüfatı Nazirliyi ilə razılaşdırılmaqla, Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən müəyyən edilmiş meyarlar üzrə ümidsiz hesab olunan aktivlərin balansdan silinməsinə və təminatlar üzrə tələblərin ödənilməsinə yönəldilir.

5.10. Müvəkkil kredit təşkilatları vasitəsilə verilmiş kredit və lizinq vəsaitindən istifadəyə görə Mərkəzin hesabına ödənilmiş faizlərin bu Qaydanın 5.9-cu bəndində nəzərdə tutulmuş hissəsi çıxılmaqla, xüsusi hesabda saxlanılan qalıq məbləğ Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin işçilərinin sosial müdafiəsinin gücləndirilməsinə, aylıq vəzifə maaşlarının 2 mislindən artıq olmayan məbləğdə əlavələrin və mükafatların verilməsinə, ştatdankənar vəzifələrə cəlb edilmiş əməkdaşların əməyinin ödənilməsinə, Mərkəzin maddi-texniki bazasının möhkəmləndirilməsinə, kredit təşkilatları ilə əməkdaşlığın təşkilinə, məlumatlandırma, reklam-təbliğat və marketinq işlərinin aparılmasına, Mərkəzin səmərəli fəaliyyəti üçün göstərilən konsaltinq xidmətlərinin və digər xidmətlərin haqqının ödənilməsinə, habelə kənd təsərrüfatı layihələrinin və kreditlərinin idarə edilməsi sahəsində elmi-texniki potensialın artırılmasına sərf edilir.

### 6. Mikrokreditlər üzrə təminatın verilməsi

6.1. Mərkəz tərəfindən müvəkkil kredit təşkilatlarına illik 2,5 faiz tətbiq edilməklə verilmiş mikrokreditlər üzrə təminatın məbləği aşağıdakı qaydada hesablanır:

6.1.1. qeyri-işlək kreditin məbləği mikrokreditlər üzrə qalıq portfelin 12 faizədək hissəsini təşkil etdikdə:

TM = QİK - (QM x 6%), burada:

TM – təminatın məbləği;

QİK – təminatlı mikrokreditlər üzrə əsas borc ödənişlərinin 90 (doxsan) təqvim günündən çox gecikdirilən hissəsi (məbləği);

QM – təminatlı mikrokreditlər üzrə əsas kredit borcunun qalıq məbləği (qalıq portfel);

6.1.2. qeyri-işlək kreditin məbləği mikrokreditlər üzrə qalıq portfelin 12 faiz və daha çox hissəsini təşkil etdikdə:

TM = QM x 6%, burada:

TM – təminatın məbləği;

QM – təminatlı mikrokreditlər üzrə əsas kredit borcunun qalıq məbləği (qalıq portfel).

6.2. Müvəkkil kredit təşkilatı təminatlı mikrokreditlər üzrə qeyri-işlək kreditin məbləğini təsdiq edən sənədləri Mərkəzə təqdim etdiyi gündən 10 (on) bank günü ərzində Mərkəz bu Qaydanın 6.1-ci bəndi ilə müəyyən edilmiş qaydada hesablanan vəsaiti müvəkkil kredit təşkilatına geri ödəyir.

6.3. Mərkəz tərəfindən ödəniş edildikdən sonra borcalan qeyri-işlək kredit portfelinə daxil olan borc öhdəlikləri üzrə ödəniş etdikdə, müvəkkil kredit təşkilatı həmin vəsaitin Mərkəzin riskinə aid olan hissəsini proporsional qaydada (Mərkəzin mikrokredit zəmanəti üzrə itkiləri bərpa edilənədək) ödəniş edildiyi gündən 10 (on) bank günü ərzində Mərkəzə geri qaytarır.

### 7. Kənd təsərrüfatı istehsal vasitələrinin satışı və lizinqinə tətbiq edilən güzəştlərin maliyyələşdirilməsi

7.1. Kənd təsərrüfatı texnikasının, texnoloji avadanlığın, suvarma sistemləri dəsti və avadanlığının (bundan sonra – texnika) güzəştli şərtlərlə satışı, krediti və lizinqinin maliyyələşdirilməsi aşağıdakı qaydada həyata keçirilir:

7.1.1. texnika üçün alıcıların ödəməsi tələb olunan ilkin ödəniş texnikanın qiymətləndirmə nəticəsində müəyyən edilən satış dəyərinin minimum 20 faizi həcmində müəyyən edilir;

7.1.2. idxal edilən texnikanın gömrük dəyərinin, yerli istehsal məhsulu olan texnikanın isə qiymətləndirmə nəticəsində müəyyən edilən dəyərinin 40 faizi həcmində güzəşt tətbiq edilir və bu güzəşt məbləği Naxçıvan Muxtar Respublikasının büdcəsindən bunun üçün Mərkəzə ayrılmış vəsait hesabına müvəkkil kredit təşkilatları vasitəsilə ödənilir;

7.1.3. texnikanın qiymətləndirmə nəticəsində müəyyən edilən satış dəyərinin qalan hissəsini isə müvəkkil kredit təşkilatları bu Qayda ilə müəyyən edilmiş şərtlər daxilində kredit və ya lizinq yolu ilə maliyyələşdirirlər. Maliyyələşmə məbləğinə bu Qaydanın 5.8-ci bəndinə uyğun tətbiq edilən faiz dövlət büdcəsi hesabına ödənilir.

7.2. Damazlıq heyvanın güzəştli şərtlərlə satışı, krediti və lizinqinin maliyyələşdirilməsi aşağıdakı qaydada həyata keçirilir:

7.2.1. müvafiq damazlıq heyvan üçün alıcıların ödəməsi tələb olunan ilkin ödəniş damazlıq heyvanın qiymətləndirmə nəticəsində müəyyən edilən satış dəyərinin minimum 25 faizi həcmində müəyyən edilir;

7.2.2. idxal edilən damazlıq heyvanın gömrük dəyərinin, ölkə daxilində yetişdirilmiş damazlıq heyvanların isə qiymətləndirmə nəticəsində müəyyən edilən dəyərinin 60 faizi həcmində güzəşt tətbiq edilir və bu güzəşt məbləği Naxçıvan Muxtar Respublikasının büdcəsindən bunun üçün Mərkəzə ayrılmış vəsait hesabına müvəkkil kredit təşkilatları vasitəsilə ödənilir;

7.2.3. damazlıq heyvanın dəyərinin qalan hissəsini isə müvəkkil kredit təşkilatları bu Qayda ilə müəyyən edilmiş şərtlər daxilində kredit və ya lizinq yolu ilə maliyyələşdirirlər.

7.3. İdxal edilən damazlıq heyvanlar üzrə güzəştlər “Elektron kənd təsərrüfatı” informasiya sistemində qeydiyyatdan keçmiş damazlıq heyvandarlıq təsərrüfatlarına verilir.

7.4. Bu Qayda ilə müvafiq il üçün kənd təsərrüfatı istehsal vasitələrinin güzəştli şərtlərlə alqı-satqısına tələb olunan vəsait Mərkəzin dövriyyə vəsaitindən (bu Qaydanın 5.8-ci bəndində nəzərdə tutulan 2% istisna olmaqla) və dövlət büdcəsindən bu məqsədlər üçün ayrılmış vəsait çərçivəsində limitləşdirilir və mövcud qanunvericiliyə uyğun sifarişlər əsasında maliyyələşdirilir.

7.5. Kənd təsərrüfatı istehsal vasitələrinin güzəştli şərtlərlə satışının, kreditinin və lizinqinin maliyyələşdirilməsi həmin vasitələrin təkrar satışına və lizinqə verilməsinə şamil olunmur.

### 8. Monitorinq və qiymətləndirmə

8.1. Müvəkkil kredit təşkilatları mütəmadi olaraq sahibkarlıq subyektlərinin monitorinqini aparır və Mərkəzin müəyyən etdiyi formada ona rüblük hesabat verirlər. Müvəkkil kredit təşkilatının apardığı monitorinq zamanı güzəştli kredit vəsaitindən təyinatı üzrə istifadə edilməməsi halları aşkar olunduqda, müvəkkil kredit təşkilatı güzəştli kreditin təyinatı üzrə istifadə edilməmiş hissəsinin və ona hesablanmış faiz borcunun vaxtından əvvəl ödənilməsini sahibkarlıq subyektindən tələb etməlidir. Belə sahibkarlıq subyektlərinə növbəti 3 (üç) il müddətində Mərkəzin vəsaiti hesabına kreditlərin verilməsi qadağan edilir. Sahibkarlıq subyektinin öz öhdəliyini yerinə yetirib-yetirməməsindən asılı olmayaraq, müvəkkil kredit təşkilatı 10 (on) iş günü müddətində məhz bu layihə ilə bağlı kreditin təyinatı üzrə istifadə edilməmiş hissəsini və ona hesablanmış faiz borcunu Mərkəzin hesabına köçürməlidir.

8.2. Vəsaitdən təyinatı üzrə istifadəyə nəzarət məqsədilə Mərkəz maliyyələşdirdiyi sahibkarlıq subyektlərində seçmə üsulu ilə müstəqil monitorinqlər apara bilər. Mərkəzin apardığı monitorinq zamanı güzəştli kredit vəsaitindən təyinatı üzrə istifadə edilməməsi halları aşkar olunduqda, müvəkkil kredit təşkilatı tərəfindən sahibkarlıq subyektinin onun qarşısında öhdəliklərini icra edib-etməməsindən asılı olmayaraq, kreditin təyinatı üzrə istifadə edilməmiş hissəsi və ona hesablanmış faiz borcu Mərkəzin hesabına köçürülür. Mərkəzin yazılı tələbindən sonra müvəkkil kredit təşkilatı 10 (on) iş günü müddətində vəsaitin köçürülməsini təmin etməzsə, bu Qaydanın 3.6-cı bəndinə uyğun olaraq cərimə hesablanır. Tələb edilən vəsaitin köçürülməsi 30 (otuz) iş gününü keçdiyi təqdirdə, Mərkəz gecikdirilən məbləğin qaytarılması üçün tədbirlər görür.

8.3. Mərkəzin müəyyən etdiyi qiymətləndirici layihələrin və (və ya) maliyyəşdirilməsi həyata keçirilən kənd təsərrüfatı istehsal vasitələrinin qiymətləndirilməsini aparır.

8.4. Bu Qaydaya əsasən maliyyələşdirilməsi həyata keçirilən kənd təsərrüfatı istehsal vasitələrinin sığortalanmasını Mərkəzin müəyyən etdiyi şərtlərə uyğun olaraq sığortaçılar və (və ya) sığorta vasitəçiləri həyata keçirirlər.

8.5. Layihə üzrə müəyyən edilmiş şərtləri müvəkkil kredit təşkilatlarının pozması halları aşkar edilərsə, bu müvəkkil kredit təşkilatları layihədən kənarlaşdırılırlar və onlar borcalanların öz öhdəliklərini yerinə yetirməsindən asılı olmayaraq, kredit vəsaitini təxirə salınmadan Mərkəzə ödəyirlər. Mərkəz layihə üzrə müəyyən edilmiş şərtləri pozan müvəkkil kredit təşkilatları barədə məlumatı təxirəsalınmadan Azərbaycan Respublikasının Mərkəzi Bankının Naxçıvan Muxtar Respublikası İdarəsinə təqdim edir.

8.6. Mərkəz qarşısında yaranmış öhdəliklərinin təminatı məqsədilə müvəkkil kredit təşkilatı Mərkəzin tələbi üzrə müvafiq pul vəsaitinin müvəkkil kredit təşkilatının Azərbaycan Respublikası Mərkəzi Bankındakı müxbir hesabından akseptsiz qaydada silinməsi haqqında Azərbaycan Respublikasının Mərkəzi Bankına yazılı sərəncam verir. Bu sərəncam Mərkəzlə müvəkkil kredit təşkilatı arasında bağlanmış müqavilə üzrə öhdəliklərə xitam verilənədək qüvvədə qalır.

## İnkişaf və intibah, milli-siyasi iradə və qalibiyyət rəmzinə çevrilən partiya

Azərbaycanın müstəqilliyinin əldə olunması, eləcə də sonrakı müstəqil dövlət quruculuğu prosesi, özünün Prezident kimi siyasi rəhbərliyi dövründə, hətta özündən sonrakı onilliklər üçün elə bir taleyüklü məsələ olmamışdır ki, o, Ulu Öndər Heydər Əliyevin diqqətindən kənarda qalsın. Azərbaycanda siyasi sistemin formalaşmasında mühüm rol oynamış, 31 il bundan əvvəl milli dövlətçiliyimizi ciddi təhlükə və sınaqlardan çıxarmaq üçün yaradılan Yeni Azərbaycan Partiyası da Ümummilli Liderin siyasi zamanı öz vaxtında və yerində hiss etmək kimi real həyat təcrübəsinə əsaslanan fenomenal intuisiyasının nəticəsi idi. 1992-ci il noyabrın 21-də Naxçıvan şəhərində belə bir partiyanın məhz qarşıda dayanan ümummilli vəzifələrin həlli məqsədilə təsis edildiyi, bunun obyektiv tarixi zərurət olduğu qısa zaman kəsiyində təsdiqləndi. Yeni Azərbaycan Partiyasının yaradılmasının əsas məramına diqqəti cəlb edən Ulu Öndər Heydər Əliyev sonralar bu haqda deyirdi: ***“Bu partiya hakimiyyət uğrunda mübarizə aparan partiya kimi yaranmadı. Biz partiyanın nizamnaməsində yazdıq ki, partiya Azərbaycanın bu ağır dövründə, ölkəmizin ictimai-siyasi həyatında iştirak etmək və Azərbaycanı bu ağır vəziyyətdən çıxarmaq üçün yaranır. Bizim partiya xalqı birləşdirmək, ölkənin problemlərinin həll olunmasında iştirak etmək məqsədilə yaranıb”.***

Hələ 1992-ci il oktyabrın 24-də “Səs” qəzeti vasitəsilə ölkənin tanınmış 91 nəfər ziyalısının yeni partiyanın yaradılması ilə bağlı müraciətinə “Yeni, müstəqil Azərbaycan uğrunda!” devizi ilə cavab verən Heydər Əliyev dövlətimizin qarşısında dayanan həlli təxirəsalınmaz vəzifələri (ərazi bütövlüyü problemi və müharibə, dərin sosial-iqtisadi böhran, optimal kadr siyasəti, müstəqil dövlətçiliyin möhkəmləndirilməsi və Azərbaycanın parçalanmasına yönəlmiş cəhdlər) müəyyənləşdirməklə, əslində, ümummilli siyasi manifesti elan edirdi: ***“Azərbaycanın bugünkü həyatı və gələcək taleyinə dair digər problemlər də məni narahat edir. Lakin Sizin müraciətinizə cavab verərkən yuxarıda göstərilən məsələlərə daha öncə diqqət yetirməyi lazım bilirəm. Zənnimcə, onların ən qısa müddətdə həlli müstəqil Azərbaycan dövləti üçün son dərəcə vacibdir. Azərbaycanın çağdaş və gələcək taleyi ilə bağlı bu problemlərinə biganə qalmağa heç kəsin haqqı yoxdur”.***

Beləliklə, Yeni Azərbaycan Partiyası ölkəmizin siyasi tarixini təşkil edən hadisələrin gərgin inkişaf dinamikasından və tarixi qanunauyğunluqdan doğaraq, dövlətçiliyin keşiyində dayanan siyasi qüvvə kimi meydana çıxdı. Konstruktiv müxalifət partiyası kimi təsis olunsa da, 1993-cü il oktyabrın 3-də Ulu Öndər Heydər Əliyevin ölkə Prezidenti seçilməsi ilə hakim partiyaya çevrildi. Bu, “Dünənin, bu günün və gələcəyin partiyası” olan Yeni Azərbaycan Partiyasına xalqın böyük inamının təzahürü idi.

Ulu Öndər 1993-cü il iyunun 15-də xalqın təkidli tələblərindən sonra ölkədə rəhbərliyə qayıdaraq dərhal həyata keçirməyə başladığı böyük xilaskarlıq missiyasının əsas nəticələri müstəqil Azərbaycanın siyasi-iqtisadi, diplomatik uğurlarında öz əksini tapdı. Ümummilli Lider Heydər Əliyev öz sağlığında ölkəmizin qarşısında dayanan taleyüklü vəzifələrin böyük bir qismini həyata keçirdi, bəzilərini isə dövlətçiliyin varisliyi probleminin optimal şəkildə həlli ilə onların icrası yolunu dəqiq şəkildə göstərdi. 1 oktyabr 2003-cü il tarixli xalqa müraciətində dahi lider artıq dövlətçiliyimizin əsasını təşkil edən ictimai-siyasi sabitliyə nail olunduğunu, milli birlik və qanunların aliliyinə söykənən vətəndaş cəmiyyətinin təməlinin qoyulduğunu, ölkə iqtisadiyyatının yenidən qurularaq inkişaf yoluna çıxarıldığını vurğulayır, özünün bütün müvafiq təsisatlarına malik güclü, demokratik dövlətimizin qurulduğunu və onun müstəqilliyinin dönməzliyinin təmin olunduğunu böyük qürurla bəyan edirdi. O qeyd edirdi ki, milli birliyə, ictimai-siyasi sabitliyə malik, iqtisadiyyatı dinamik inkişaf edən, güclü dövlət təsisatları olan, demokratik və vətəndaş cəmiyyətinə əsaslanan müstəqil dövlətlə hər şeyi, o cümlədən müstəqil Azərbaycan dövlətinin qarşısında ən böyük və ciddi problem kimi dayanan ərazi bütövlüyü və digər məsələləri həll etmək olar. Məhz bu mühüm vəzifənin həlli üçün üzünü xalqına tutaraq Azərbaycan dövlətçiliyinin yeganə inkişaf yolunu göstərirdi: ***“Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın***

*Ardı 4-cü səhifədə*

***firavanlığı yolunda çox işlər görəcəklər. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri Sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".***

Ulu Öndərin müraciətinə yekdilliklə səs verən qədirbilən xalqımız düz 20 il əvvəl onun layiqli siyasi varisi İlham Əliyevi özünə Prezident seçməklə, bugünkü Azərbaycana – ölkə ərazisinin işğaldan tamamilə azad olunduğu, bütün ərazilərimizdə üçrəngli Dövlət Bayrağımızın dalğalandığı, 100 illik tarixi saxtakarlığa və 30 illik işğala son qoyularaq öz ərazisi üzərində konstitusiya quruluşunun tam bərpa olunduğu qüdrətli Azərbaycan dövlətinə səs verdi. 2020-ci ilin sentyabr-noyabr aylarında 44 günlük Vətən müharibəsində möhtəşəm Zəfərə imza atan, 2023-cü il sentyabrın 19-20-də birgünlük lokal antiterror əməliyyatı ilə Qarabağ iqtisadi rayonunda məskən salmış terrorçu-separatçıları diz çökdürən Müzəffər Ali Baş Komandanımız cənab İlham Əliyev və onun böyük strateq və sərkərdə kimi başçılıq etdiyi şanlı Azərbaycan Ordusu müstəqillik dövrünün ən böyük problemini həll edərək mənfur düşməni torpaqlarımızdan qovdu – ərazi bütövlüyümüzü və torpaqlarımız üzərində tam suverenliyimizi bərpa etdi. Bu gün 50 milyonluq dünya azərbaycanlıları son üç ildə Azərbaycanın çoxminillik dövlətçilik tarixinin ən şanlı mərhələsini xalqımıza bəxş edən Azərbaycan Prezidentinə sonsuz ehtiramını və dərin minnətdarlıq hisslərini ifadə edir, ərazi bütövlüyümüz uğrunda canlarından keçmiş şəhidlərimizin xatirələrini əziz tutur.

Vətən müharibəsinin əsas nəticələrindən biri də bir əsr əvvəl erməni işğalı altına düşmüş qədim Azərbaycan torpağı olan Zəngəzur vilayətinin qərb hissəsindən keçəcək nəqliyyat kommunikasiyalarının – Zəngəzur dəhlizinin açılması perspektividir. Zəngəzur dəhlizi Azərbaycanı Şərq-Qərb, Şimal-Cənub, Şimal-Qərb nəqliyyat qovşaqlarının əsas tranzit ölkələrindən birinə, Naxçıvan ərazisini isə mühüm beynəlxalq logistika mərkəzinə çevirəcəkdir. Dövlət başçımızın da dəfələrlə qeyd etdiyi kimi, dəhlizin ölkəmiz üçün yalnız nəqliyyat və iqtisadi deyil, daha çox strateji məsələ kimi əsas siyasi hədəfə çevrilib.

Ümummilli Lider Heydər Əliyevin möhkəm təməllərini qoyduğu Azərbaycan dövləti bugünkü qüdrətinə son iki onillikdə böyük uğurlara imza ataraq nail oldu: ölkəmizdə ictimai-siyasi sabitlik dönməz prosesə çevrildi, davamlı sosial-iqtisadi yüksəliş təmin edildi, Azərbaycan dünyanın enerji siyasətində mühüm aktor və transmilli iqtisadi, nəqliyyat və strateji layihələri uğurla icra edərək regional aparıcı dövlət kimi çıxış etməyə başladı. Bir çox beynəlxalq təşkilatlarda ölkəmiz bu təşkilatların tribunalarından yalnız milli deyil, ümumbəşəri problemləri qabardan və onların həllinə can atan təşəbbüskar dövlətə çevrilərək, əvvəlcə BMT Təhlükəsizlik Şurasının 2012-2013-cü illər üçün qeyri-daimi üzvü, sonra isə bu təşkilatdan sonra dünyanın ikinci aparıcı təşkilatı olan Qoşulmama Hərəkatının 2019-2023-cü illər üçün sədri seçildi, Türk Dövlətləri Təşkilatının iki əsas qurucu və aparıcı dövlətindən birinə çevrildi. Dünyanın azsaylı kosmik dövlətləri sırasına qoşuldu, özünün multikultural və tolerant milli-mənəvi dəyərləri ilə beynəlxalq tədbirlərin mərkəzinə çevrildi və ən nəhayət, Silahlı Qüvvələrini müasir standartlara uyğun quraraq, ən ciddi döyüş tapşırıqlarını icra edəcək qüvvəyə malik dünyanın ən güclü 50 ordusundan birinə və özünün dinamik inkişaf edən müdafiə sənayesinə sahib oldu.

Əlbəttə, ölkəmizin qüdrətinin artması, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin dünya miqyaslı siyasi liderə çevrilməsi ikili standartların hökm sürdüyü, beynəlxalq hüququn işləmədiyi və ədalətin zəif olduğu bir zamanda bədxahlarımız tərəfindən asanlıqla həzm edilə bilmir. Bunun əsas səbəblərinə partiyanın 2021-ci il martın 5-də keçirilən VII Qurultayındakı yekun nitqində toxunan Azərbaycan Prezidenti, Yeni Azərbaycan Partiyasının sədri İlham Əliyev eyni zamanda qarşıda dayanan əsas və dəyişməz milli vəzifəni müəyyənləşdirərək deyirdi: ***"Azərbaycan dünya miqyasında nadir ölkələrdəndir ki, tam müstəqil şəkildə öz daxili, xarici siyasətini aparır, öz dostlarını özü seçir, heç kimin qabağında baş əymir, heç kimə hesabat vermir. Ancaq Azərbaycan xalqının iradəsi Prezident kimi mənim üçün əsas məsələdir. Son illərin tarixi göstərdi ki, bütün cəhdlərə baxmayaraq, heç kim Azərbaycanı öz müstəqil yolundan döndərə bilmədi. Nə qədər cəhdlər göstərildi ki, bizi bu və ya digər avantüraya cəlb etsinlər, bizi təhrik etsinlər, hətta bəzi dost ölkələrlə bizim aramıza girsinlər. Bu cəhdlər çox olub. Sadəcə olaraq, geniş ictimaiyyət bundan xəbərsizdir. İstisna edilmir ki, bundan sonra da çox olacaq. Ancaq biz müstəqil siyasət apararaq bütün bu cəhdləri alt-üst edirik. Buna görə müstəqilliyin bundan sonra da möhkəmləndirilməsi işində partiyamız və bütün cəmiyyətimiz fəal olmalıdır".***

Bu gün Naxçıvan Muxtar Respublikasında da sosial həyatın bütün sahələrində böyük uğurların əldə olunmasında başlıca səbəb Ulu Öndərin yoluna sədaqət və bu yolun böyük ehtiramla davam etdirilməsidir. Günü-gündən müasirləşən muxtar diyarımızda həyata keçirilən böyük quruculuq siyasəti, yaradılan ictimai-siyasi sabitlik, vətənpərvərlik dövlətə və Ulu Öndər Heydər Əliyevin əbədiyaşar ideyalarına sədaqət hər bir azərbaycanlının həyat amalıdır. Belə ki, vətəndaşlar Yeni Azərbaycan Partiyasının sıralarına qoşulur, Ulu Öndərin parlaq siyasətini dəstəkləyirlər. Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının üzvləri muxtar respublikanın sosial-iqtisadi və ictimai-siyasi həyatında əsas hərəkətverici qüvvəyə çevrilib. Hazırda təşkilatın 57 551 üzvü vardır ki, onlardan da 25 757-si qadın, 16 783-ü gəncdir. Qeyd edək ki, 2023-cü ilin yanvar-sentyabr ayları ərzində partiya sıralarına 863 nəfər yeni üzv qəbul edilib. Onlardan 764 nəfərini gənclər, 501 nəfərini isə qadınlar təşkil edir.

Öz liderinin bütün çağırışlarına adekvat cavab verən, 700 min nəfərlik siyasi həmfikirlər ordusunu sıralarında birləşdirən Yeni Azərbaycan Partiyası artıq üçüncü ildir ki, öz yaradılışının ildönümlərini yeni, xalqımız və dövlətçiliyimiz üçün mühüm tarixi mərhələdə qeyd edir. Bu il isə ölkəmiz üçün, xüsusilə yubileylər ili kimi əlamətdardır. Yeni Azərbaycan Partiyası 2023-cü ilin ilk günlərindən Azərbaycan xalqının Ümummilli Lideri, partiyanın qurucusu Heydər Əliyevin anadan olmasının 100 illiyini böyük ruh yüksəkliyi və təntənə ilə qeyd edir. Bundan başqa, bu il Yeni Azərbaycan Partiyasının sədri İlham Əliyevin ölkəmizə rəhbərliyinin 20-ci ili tamam olmuşdur. Nəhayət, yaşadığımız il Yeni Azərbaycan Partiyasının iqtidarda olduğu 30-cu ilini tamamlaması ilə də əlamətdardır. Partiya bütün bu yubileylər ərəfəsində özünün Azərbaycanın müstəqillik tarixi ilə həmahəng olan 31 illik siyasi tarixinə böyük qürurla yekun vurur, eyni zamanda müasir dövrün, dövlətçiliyimizin çağdaş inkişafının ortaya çıxardığı yeni çağırışlara, öz liderinin irəli sürdüyü siyasi vəzifə və tezislərə, Azərbaycan Prezidentinin həyata keçirdiyi çoxtərəfli islahatlara, o cümlədən ölkəmizdə formalaşdırdığı yeni siyasi konfiqurasiyaya ən yüksək səviyyədə cavab verməyə hazır monolit qüvvə kimi dövlətçi missiyasını davam etdirmək əzmini nümayiş etdirir.

*Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının sədri cənab İlham Əliyevin partiyanın VII Qurultayındakı giriş nitqində müəyyənləşdirdiyi başlıca milli məsələ, vətəndaş həmrəyliyini qoruyub saxlamaqla, üçrəngli ay-ulduzlu bayrağımızın əbədiyyətədək səmada dalğalanmasını təmin etməkdir:* ***"...biz yeni dövrə qədəm qoyduq. Bölgədə və ölkəmizdə tamamilə yeni geosiyasi vəziyyətdir. Ona görə biz bütün addımlarımızı düzgün atmalıyıq ki, daim qələbə qazanaq, Azərbaycan Bayrağı daim yüksəklərdə olsun".***

**Elman CƏFƏRLİ**
***Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatının sədri,***
***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Humanitar siyasət komitəsinin sədri***

## Son 3 ay ərzində 470 ərizə daxil olub, müraciətlərin, təxminən, 75 faizi həllini tapıb

*Ölkəmizdə həyata keçirilən daşınmaz əmlak, torpaq islahatlarının əsas tərkib hissəsi kimi mülkiyyət hüquqlarının tanınması, toxunulmazlığı və qorunması prioritet məsələlərdəndir. Respublikamızın qanunvericilik aktlarında, tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə öz əksini tapan vətəndaşların bu sahədəki qanuni mənafelərinin müdafiəsi, hüquqları barədə insanların maariflənməsi olduqca vacibdir. Məhz bu baxımdan günümüzdə öz aktuallığını qoruyan sözügedən məsələ ilə bağlı oxucularımıza geniş məlumat vermək üçün Naxçıvan Şəhər İcra Hakimiyyətinin Hüquq şöbəsinin müdiri İsa Allahverdiyevlə həmsöhbət olduq:*

***– Xoş gördük, İsa müəllim, gəlin mövzumuzun preambulasından başlayaq. İstərdim, ilk olaraq daşınmaz əmlaka münasibətdə vətəndaşların mülkiyyət hüquqlarının tanınması və toxunulmazlığı barədə məlumat verəsiniz.***

– Xoş gördük, mülkiyyət, daşınmaz əmlaka münasibətdə mülkiyyət hüququnun əldə edilməsi, itirilməsi və pozulması halları Azərbaycan Respublikasının Konstitusiyasında, digər normativ-hüquqi aktlarında, eləcə də Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə geniş şəkildə öz əksini tapıb. Mülkiyyət hüququ mülkiyyətçinin təkbaşına və ya başqaları ilə birlikdə əmlaka sahib olmaq, əmlakdan istifadə etmək və onun barəsində Sərəncam vermək hüquqlarından ibarətdir. Konstitusiyamızın 13-cü maddəsində göstərildiyi kimi Azərbaycan Respublikasında mülkiyyət toxunulmazdır və dövlət tərəfindən müdafiə olunur. Mülkiyyətin 3 növü (dövlət mülkiyyəti, xüsusi mülkiyyət və bələdiyyə mülkiyyəti) mövcuddur. Eyni zamanda Konstitusiyanın 29-cu maddəsinin tələblərinə əsasən heç kəs məhkəmənin qərarı olmadan mülkiyyətindən məhrum edilə bilməz və dövlət ehtiyacları üçün mülkiyyətin özgəninkiləşdirilməsinə yalnız qabaqcadan onun dəyərini ədalətli ödəmək şərti ilə yol verilə bilər.

***– Vətəndaşlar onların mülkiyyət hüquqlarının dövlət qeydiyyatına alınması üçün hansı hərəkətləri etməlidirlər?***



– Mülki Məcəllənin 139-cu maddəsinə əsasən mülkiyyət hüququ və daşınmaz əmlaka digər hüquqlar, bu hüquqların məhdudlaşdırılması, əmələ gəlməsi, başqasına keçməsi və xitamı dövlət qeydiyyatına alınmalıdır. Daşınmaz əmlaka hüquqların dövlət qeydiyyatı müvafiq icra hakimiyyəti orqanı tərəfindən (Naxçıvanda Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidməti) qanunvericiliklə müəyyən edilmiş qaydada tərtib edilən və aparılan daşınmaz əmlakın dövlət reyestrində həyata keçirilir. Qeyd olunan hüquqların dövlət qeydiyyatı üçün vətəndaşlar tələb olunan sənədlərlə birgə həmin orqana müraciət edərək təyin edilmiş rüsumlarını ödəməklə mülkiyyət hüquqlarını təsdiq edən sənədləri əldə edə bilərlər.

***– Bəs yerli icra hakimiyyətləri tərəfindən vətəndaşların mülkiyyət hüquqlarının təmin edilməsi və bununla bağlı vətəndaş müraciətlərinin qeydə alınması hansı formada tənzimlənir?***

– Yerli icra hakimiyyəti orqanları Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 6 iyun tarixli 648 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Yerli icra hakimiyyətləri haqqında" Əsasnamənin və digər normativ-hüquqi aktların tələblərini rəhbər tutaraq mülkiyyətin qorunmasını, mülkiyyət hüququnun pozulmasının qarşısının alınmasını və vətəndaşların mülkiyyət hüquqlarını təsdiq edən sənədləri əldə etmək üçün əsas verən inzibati aktların (müvafiq sərəncamlar, əmrlər və sair) qəbul edilməsini təmin edir və dövlət mülkiyyətində olan torpaq ehtiyatlarından səmərəli istifadə məqsədilə müvafiq tədbirlər görürlər. Vətəndaş müraciətlərinin təmin edilməsi isə "Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikasının qanununa uyğun formada həyata keçirilir.

***– Vətəndaşların mülkiyyət hüquqlarının pozulmasının qarşısının alınması barədə qanunvericiliklə nəzərdə tutulan proseslərlə bağlı ətraflı məlumat verərdiniz. Bəs Naxçıvan Şəhər İcra Hakimiyyətinin aid şöbəsinin bu sahədəki fəaliyyətini necə xarakterizə edərsiniz? Ötən dövrdə mülkiyyət hüquqları pozulmuş vətəndaşlardan daxil olan müraciətlərlə bağlı hansı işlər görülüb?***

– Bəli, öncə qeyd etmək istərdim ki, Naxçıvan Şəhər İcra Hakimiyyətinə son dövrlərdə müxtəlif hüquq pozuntuları ilə bağlı vətəndaş müraciətləri artıb. Qeyd olunan müraciətlərin əksəriyyəti mülkiyyət hüquqları pozulmuş vətəndaşlarla bağlıdır və onların bir çoxunun işi aidiyyəti üzrə məhkəmə qaydasında həllini tapır. Mülkiyyət hüququ pozulmuş vətəndaşlar əvvəlcə tələb olunan sənədlər əsasında İcra Hakimiyyətində qeydiyyata alınır və daha sonra məhkəməyə müraciət etmələri ilə bağlı onlara ətraflı məlumat verilir. Çox təəssüf hissi ilə bildirmək istərdim ki, hazırda mülkiyyət hüquqlarının pozulması ilə bağlı Naxçıvan Şəhər İcra Hakimiyyətinə qarşı iddia tələbi irəli sürmüş vətəndaşların daşınmaz əmlak obyektləri, təxminən, 2003-2015-ci illərdə qeyri-qanuni formada, məhkəmə qərarı olmadan sökülmüş və onlara qarşılığında hər hansısa kompensasiya ödənilməmişdir. Sevindirici hal budur ki, qeyd olunan məsələ ilə bağlı vətəndaşların pozulmuş hüquqlarının bərpa edilməsi və onlara dəymiş ziyanın qarşılanması üçün Naxçıvan Şəhər İcra Hakimiyyətinin 17 avqust 2023-cü il tarixli Sərəncama əsasən İcra Hakimiyyətinin öz vəsaiti hesabına şəhərin müvafiq ərazilərindən həmin vətəndaşlara yaşayış və qeyri-yaşayış sahələri üçün torpaqlar ayrılıb. Əlavə olaraq qeyd etmək istərdim ki, son 3 ay ərzində Naxçıvan Şəhər İcra Hakimiyyətinə mülkiyyət hüququ pozulmuş vətəndaşlar tərəfindən 470 ərizə daxil olub, onlardan 255-i aidiyyəti üzrə Naxçıvan Muxtar Respublikası İnzibati Məhkəməsinə müraciət edib. Həmin 255 nəfər vətəndaşdan 156 nəfər Naxçıvan Şəhər İcra Hakimiyyətinin təklif etdiyi torpaq sahəsi ilə razılaşıb və onlardan 133 nəfərin hüquqları dövlət qeydiyyatına alınması üçün Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidmətinin Naxçıvan Şəhər İdarəsinə göndərilib. Həmçinin məlumat üçün bildirim ki, daxil olan məhkəmə işlərinin 81-nə müvafiq məhkəmə tərəfindən rəsmi qaydada xitam verilib. Bu o deməkdir ki, mülkiyyət hüquqları pozulmuş vətəndaşlar tərəfindən daxil olmuş müraciətlərin, təxminən, 75 faizi həllini tapıb və digər məhkəmə prosesi davam edən vətəndaşlarla isə məsələlərin müsbət həlli üçün danışıqlar aparılır. Bununla paralel olaraq vətəndaşların pozulmuş hüquqlarının bərpasına dair hüquqi maarifçilik işlərinin artırılması, eyni zamanda vətəndaşlara dolğun, düzgün və qanunvericiliyin tələblərinə uyğun məlumatların verilməsi ilə əlaqədar İcra Hakimiyyəti tərəfindən müvafiq tədbirlər həyata keçirilir.

***– Suallarımızı ətraflı cavablandırdığınız üçün təşəkkür edirik!***

**Nail ƏSGƏROV**

## Elan

"Kainat Qida" Məhdud Məsuliyyətli Cəmiyyəti (VÖEN:0300876121) "Asaf-M" Məhdud Məsuliyyətli Cəmiyyətinin (VÖEN:0201380041) ona qoşulması nəticəsində yenidən təşkil edildiyini elan edir.

### İtmişdir

Şərur rayonunun Stansiya Daşarx kənd sakini Seyidov Miryusif Mirəziz oğlunun adına olan JN-404 nömrəli dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Şərur rayonunun Cəlilkənd sakini Mehdiyeva Arzu Meydan qızının adına olan JN-432 nömrəli dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Şərur rayonunun Yengicə kənd sakini Əliyev Elxan İbrahim oğlunun adına olan JN-923A nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Sədərək rayonunun Dəmirçi kəndində yaşamış Zeynalov Akif Zeynalabdin oğlunun adına olan JN-641B nömrəli, 10200088 kodlu "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Məhərrəmov Faiq Əyyub oğlunun adına olan A-468532 seriya nömrəli, Əfqanıstan müharibə veteranı vəsiqəsi itdiyindən etibarsız sayılır.

***

Babək rayonunun Payız kənd sakini Alcəfərov Telman İsmayıl oğlunun adına olan evin 103013001205-10301 nömrəli çıxarışı itdiyindən etibarsız sayılır.

***

Şərur rayonunun Şəhriyar kənd sakini Abdullayeva Bahar Hümbət qızının adına olan JN-148C nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Ordubad rayonunun Vənənd kəndində yaşamış İmanov Mustafa Qaffar oğlunun adına olan JN-847B nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Gülcamal Tahirova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 666